*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 2* *ISSN 2663-4368*
*Səhifə: 148-152* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2023.2.148*

# ÜZEYİR HACIBƏYLİNİN PARLAMENT TƏƏSSÜRATLARI

**Ləman Muxtarova**
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyi. Azərbaycan.
E-mail: lemanazfen@gmail.com

**Annotasiya.** Məqalədə Üzeyir bəy Hacıbəylinin parlamentin bəzi iclasları ilə bağlı təəssüratlarından, xalqının azadlığı və müstəqilliyinə qayğısından bəhs edilir. Məqalədə qarşıya qoyulan əsas məqsəd Ü.Hacıbəylinin 1918-ci ildə yeni yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti haqqında təəssüratlarını göstərməkdir. 1918-ci ildə Azərbaycan Parlamentinin açılışı böyük tarixi hadisə idi. Parlament xalqın milli azadlıq, daxili sabitlik və xarici müdaxilələrdən qorunma ümidi idi. Məqalədə Ü.Hacıbəylinin millətin tərbiyəsi, milli dilin qorunub saxlanması və bu yolda aparılan islahatlarla bağlı fikirlərinə də toxunulub. O, parlamenti müstəqillik yolunda əsas sütun hesab edirdi. İlk milli parlamentlə bağlı yazılarında Ü.Hacıbəylinin əsas şüarını – milli birliyi, parlamentin yeni hökumətin toxunulmazlığını qoruyub saxlaya biləcəyinə ümidini görürük. Məqalədə xalqımızı müstəqllik yolunda atılan addımlarda qətiyyətli olmağa çağıran istiqlal mücahidinin təəssüratları ön plana çəkilir. Burada müstəqilliyə yenicə qədəm qoyan millət üçün azad, demokratik prinsip üzərində qurulan Parlamentin olması və onun milli əsaslar üzərində qurulmasının qüruru Üzeyir Hacıbəylinin təəssüratlarında öz parlaq əksini tapmışdır.
**Açar sözlər:** Parlament, təəssürat, milli azadlıq, iclas, Üzeyir

**Məqalə tarixçəsi:** göndərilib – 03.10.2023; qəbul edilib – 18.10.2023

# UZEYIR HAJIBEYLI'S PARLIAMENTARY IMPRESSIONS

**Leman Mukhtarova**
National Museum of Azerbaijan named after Nizami Ganjavi. Azerbaijan.
E-mail: lemanazfen@gmail.com

**Abstract.** The article talks about Uzeyir Bey Hajibeyli's impressions of some sessions of the parliament and his concern for the freedom and independence of his people. The main goal of the article is to show U.Hajibeyli's impressions of the newly established Parliament of the Azerbaijan Democratic Republic in 1918. The opening of the Parliament of Azerbaijan in 1918 was a great historical event. Parliament was the people's hope for national freedom, internal stability and protection from foreign interference. In the article, U.Hajibeyli's views on the education of the nation, the preservation of the national language and the reforms carried out on this path were also touched upon. He considered the parliament to be the main pillar on the way to independence. In his writings about the first national parliament, we see the main motto of U.Hajibeyli - national unity, the hope that the parliament will be able to preserve the immunity of the new government. In the article, the impressions of the independence fighter, who called our people to be decisive in the steps taken towards independence are brought to the fore. U.Hajibeyli's impressions of having a parliament built on free democratic principles and its establishment on national foundation are expressed here.
**Keywords:** Parliament, impression, national independence, meeting, Uzeyir

**Article history:** received – 03.10.2023; accepted − 18.10.2023

## Giriş / *Introduction*

Azərbaycan Cümhuriyyəti yarandıqdan sonra onun inkişafı, mübarək bir yolla addımlaması üçün Milli Parlamentin tezliklə açılması zəruri idi. Xalqımızın bu gün üçün nə qədər qurban verdiyi, nə qədər zülmə, əzaba qatlaşdığı ölçülməzdir. Parlament fəaliyyətə başlamazdan öncə də, sonra da yalnız bir şüarı-millətin müdafiəsi, mühafizəsi, müqəddəratının həlli və bu yolda sülhün qalibiyyəti idi. Azərbaycanın bütün dövlətlər içərisində öz yeri olduğuna, öz istiqlalını dünyaya sübut etməyə haqqı olduğunu çatdırmaq yolunda Parlament ən layiqli vasitə idi. Bu mühüm hadisəyə biganə qalmayanlardan biri də xalqın azadlığına ürəkdən sevinən və onu mədh edən milli ruhlu istiqlalçı Üzeyir bəy idi.

Üzeyir bəy dahi bəstəkar olmaqla yanaşı, həm də millətçi ruhlu publisist idi. Onun yaradıcılığı həm pedaqoq, həm də publisist kimi çox zəngindir. O, müəllimliyə başladığı illərdə ana dilində hesab dərsliyi yazmış və N.V.Qoqolun "Şinel" əsərini dilimizə tərcümə etmişdir. Publisistikası zəngin olan Üzeyir bəy bir sıra felyetonlar, hekayələr və miniatürlərin də müəllifidir. Ü.Hacıbəyli maarifçi, demokratik, yenilikçi, humanist insan idi. Publisistik yazılarının əsas mövzusunu milliləşmə, azadlıq, humanistlik, maariflənmə problemləri təşkil edirdi. O, bir publisist kimi "İrşad", "Tərəqqi" , "Kaspi", "Həqiqət", "Molla Nəsrəddin" kimi qəzet və jurnallarda dərc etdirdiyi məqalə və felyetonlarında xalqın maariflənməsinə, demokratik ideyaların aşılanmasına, milli ideologiyanın formalaşmasına, milliləşmə problemlərinə, milli dil probleminə toxunurdu. Görkəmli yazıçı Mirzə İbrahimov "onun publisistikasının mütərəqqi mahiyyətdə olub, xalqımızın azadlıq mübarizəsinə böyük köməklik göstərdiyini" yazmışdır [3, s.18]. Ü.Hacıbəylinin bu qəbildən olan məqalələr silsiləsindən diqqəti cəlb edən Milli Parlamentin açıldığı gündən öz təəssüratlarını bölüşdüyü "Azərbaycan" qəzetində dərc olunan şərhləri idi.

## Əsas hissə / *Main Part*

**Parlament – istiqlal mücahidinin ümidi kimi.** Üzeyir Hacıbəylinin Cümhuriyyət Parlamentinin iclaslarına yazdığı "Təəssürat" silsilə məqalələrini Parlament iclaslarının güzgüsü hesab etmək olar. Üzeyir bəy 1918-1920-ci illərdə, Azərbaycan Demokratik Cümhuriyyəti dövründə "Azərbaycan" qəzetinin çox fəal yazarlarından biri idi. Qəzetin ilk redaktoru Üzeyir bəyin qardaşı Ceyhun bəy Hacıbəyli idi. Üzeyir bəy Cümhuriyyət Parlamentinin fəaliyyəti dövründə mütəmadi olaraq "Azərbaycan" qəzetində iclasların gedişi ilə bağlı təəssüratlarını qələmə alır, millətin taleyi ilə bağlı narahatlıq doğuran məsələlərə biganə qala bilmirdi. Bu yazıların hamısı böyük millətçinin xalqının gücünə olan inamından doğmuş humanist ideyaların toplusu idi. Onun "Təəssürat" başlıqlı silsilə məqalələri bu baxımdan çox qiymətli nümunələrdir. Üzeyir bəy Parlamentə böyük ümidlər bəsləyirdi. Parlament hər kəs üçün gələcəyə dair bütün nigarançılıqların həllinə vəsilə idi. Böyük istiqlalçının da ovqatı buna görə xoş və qəlbi ümid dolu idi:

"Qəlbimizdə bəslədiyimiz ümid – parlamanımızdır" [1, s.51].

Üzeyir bəy xalqın mənzili-məqsədə yetişməsi üçün bu ümidlərə qüvvət verirdi. Məqsəd istiqlal yolunda möhkəmlənmək, bu azadlığı və birliyi daha da gücləndirmək idi. O, istiqlal yolumuzun qədəmlərini bir-birindən mübarək sayırdı. Bu qədəmlərə həm ad verir, həm də bu yolda görüləcək işlər üçün də xalqımızı aydınladırdı. Birinci qədəm İstiqlalımızın möhürü – müstəqil hökumət idi. İkinci qədəm Parlaman, üçüncü qədəm isə əlbirlik. Bundan sonrakı yol isə ləyaqət idi. Biz azad bir xalq olaraq müstəqil yaşamağa layiq olduğumuzu göstərsək, istiqrarlı şəkildə ölkəmizi yaşada bilərik.

Üzeyir bəy bu xüsusda Parlamentə çox ümidlər bəsləyirdi. Milli Şuramızın mövcudiy-

yəti qədər onu sevindirən bir şey yox idi. Çünki axtardığı sualların cavabı məhz burada idi:

"Birdən fikrinə bir şey düşür. O "şey" səni şadlandırır, qəlbin rahat olur, fikir səni basmır. Hətta iştahan açılır. Vəxtində yiyib, vəxtində yatırsan və başındakı suallara deyirsən ki, bir az səbr edin, inşallah hamınıza cəvab verəcəyəm. O şey nədir – Parlaman" [1, s.488].

Üzeyir Hacıbəyli bu təəssüratları Hökumətin Denikin qoşunlarının hücum təhlükəsi ilə üzüzə qaldığı bir vaxtda Parlamentə ümid bəsləyib, bununla bağlı iclasa üz tutarkən qələmə alır. Çünki Üzeyir bəy millətin başının üstünü alan bu təhlükələrlə bağlı içində baş qaldıran ardı-arası kəsilməyən suallara necə cavab tapacağını bilmir. Lakin içində bir ümid, bir güman yeri kimi Məclisi-Məbusana üz tutur. Çalışır ki, gördüklərini və eşitdiklərini qələmə alaraq millətinin bu hadisələrdən mütəəssir olmasına mane olsun, bədbinliyə qapılmasın.

**Məclisi-Məbusan təəssüratları.** Cümhuriyyət Parlamenti yaranan gündən hər kəs bu mübarək günə şadlanır, bayram edirdi. Həqiqətən də, müstəqil dövlət yarandıqdan sonra onun Parlamanını açmaq böyük şərəf idi. Lakin neçə il əsarətdə olan bir millət üçün bu, böyük məsuliyyət idi. Üzeyir Hacıbəyli xalqına böyük ümidlər bəsləyirdi. Eyni zamanda da çox gözəl bilirdi ki, düşmən keşikdədir, hər an əsarət zəncirini millətin boğazına keçirmək niyyətindədir. Ona görə də məqalələri ilə xalqına ayıq-sayıq olmaq ismarıcını verirdi. O, Azərbaycan xalqının hürriyyət və asudəliyinə göz dikənlərə qarşı etirazını bildirirdi: "Gözlər var ki, dünənə qədər əsir və qul olan bir milləti bu gün azad və sərbəst görmək istəmir. Qulaqlar var ki, lal edilmiş bir dilək, bir millət dillənən bu gün açılıb da söz söyləməsini eşitmək istəmir. Qəlblər var ki, bir əsrdən artıq məhkum qalan bir millətin bu gün hakim, yalnız müstəqil və azad olmasını qəbul etmək istəmir" [1, s.43].

Milli Parlament açıldığı üçün xalqımız çox sevincli və qürurlu idi. Milləti qürurlandıran məsələlərdən biri də o idi ki, Parlament möhkəm və milli əsas üzərində qurulur. Əsrlərlə zülm görmüş bir millət öz iradəsini artıq ələ alacaqdı. Ü.Hacıbəylinin bu qürur hissini daha dərindən duya bilirik: "Padşahlı məmləkətlərdə məclisi-məbusanı padşah açar, amma Azərbaycan Cümhuriyyətinin Məclisi-Məbusanını bir nəfər vətən övladı açdı" [1, s.87].

Üzeyir Hacıbəyli məqalələrində nəinki istiqlaldan, həm də milliləşmə yolunda mübarizədən də söhbət açır və bunu milli dilimizin saflaşmasında ilk addımlardan biri hesab edirdi. "Təəssürat" silsilə məqalələrinin birində dil haqqında qayğılarını ifadə edərək yazırdı:

"Parlamanımızın keçən günkü iclasından hasil etdiyim təəssürat, keçənlərdəki kimi zövq aldığım xoş təəssüratımın yerini verə bilmədi. Parlaman bənə:

- Keşiş həmişə kətə yimiz!

Dedirtdi.

Qərəz, heysiyyati-milliyəm tətmin edilmədi, qəlbimdə bir acılıq qaldı.

Bir kəlmə:

- Sındım!

Rusca danışılmalı imiş!

Raboçi klubda rus fəhlələri müsəlman natiqlərindən rusca danışmağı tələb edirmişlər. Parlamanda dəxi hərdəm bunu tələb edənlər olmayır deyil, fəqət tələb edənlər ruslar degildir" [1, s.221].

Məqalənin girişindən göründüyü kimi, Üzeyir Hacıbəyli dilimizin keşiyində durmaq naminə necə təəssübkeşlik içindədir. Üzeyir bəy böyük millətçi idi, o, dilimizi qorumağa çalışmaqla yanaşı, digər millətlərə nəzakətini ifadə edərək tələb edirdi ki, rusca danışılmasın, zəruri sənədlər rusca tərcümə edilsin. Milli birliyin olması üçün dilimizin saflığı, bütövlüyü qorunmalı idi. Müstəqil Cümhuriyyət Parlamentin mütəşəkkil olması üçün iclasların ana dilində aparılması məsələsi mütləq idi. Dil bizim milli mənəviyyatımızın əsası, milli kimliyimizdir. Üzeyir bəy dilimizin qorunmasının əhəmiyyətini vurğulayaraq, həm də onu möhkəmləndirmənin dövlət səviyyəsində həyata keçirməli olduğumuzu nəzərə çatdırırdı.

Ü.Hacıbəyli bayrağımızın, milli istiqlalımızın sarsılmaz və əbədi olacağı ümidini xalqa çatdırırdı. Əsir olmaq istəməyən milləti azadlıq şüarları ilə ruhlandırırdı. Milli istiqlalımızın rəmzlərini qoruyub saxlamağı, onu möhkəm əllərlə tutmağı və bu əlləri bu haqq yolundan döndərməməli olduğunu söyləyirdi. Əsarət zəncirini qırmış millətin bayrağı enməz deyirdi: "Zülm və əsarətin yorğun zəncirlərini qırıq-qı-

rıq etməyə qadir olmuş bir millətin, həqq və hüriyyət bayrağı enməz, sarsılmaz” [2, s.91].

Üzeyir Hacıbəyli istiqlal yolunda atılan addımların millətin gələcəyi üçün atılan mütərəqqi addımlar olduğunu anlayırdı. O, xalqına dərin inam, onun mübarizəsinə etimad bəsləyirdi. Üzeyir bəydə milliləşmək, birləşmək, bütövləşmək yolunda hər zaman yorulmadan çalışan iradə var idi. O, istiqlal yolunda yenicə atılan addımları yüksək qiymətləndirərək bu yolda daha da çox çalışmaq lazım olduğunu deyirdi: “Biz istiqlal yolunda iki qədəm atmışdıq, birisi istiqlali-elanı və müstəqil hökumət təşkili, ikincisi isə parlamanın açılması” [1, s. 128].

Üzeyir Hacıbəyli istiqlal yolumuzun möhkəm olmasını diləyirdi. Bunun üçün isə milli birlik lazım idi. Xalqımız da bu birlikdən doğan gücə inanırdı.

## Nəticə / *Conclusion*

Ü.Hacıbəylinin məqalələrində həm tənqid, həm də təqrir var idi. O, bir tərəfdən, milliləşmə uğrunda mübarizənin çətin olduğunu anlayır, digər tərəfdən, milli birlik olduğu təqdirdə bu xalqın hər cür mübarizəyə hazır olduğuna inanırdı. İstiqlal və istiqbalın bu birlikdən doğan gücün hesabına daha da möhkəmlənəcəyinə ümidlər bəsləyirdi. Bundan savayı, qəlbi incəliklərlə dolu olan Üzeyir bəy müstəqillik yolunda atılan addımlarımızda qətiyyətli olmağa, hər kəsə bu müstəqilliyə layiq olduğumuzu, buna haqqımız olduğunu göstərməyə çağırırdı. Böyük millətçi xalqın haqqını xalqa verməyə çağırırdı. Onun üçün əsas mübarizə milliləşmədən başlayırdı. Sonrakı təəssüratlarından birində milli dil məsələsinə toxunur, Azərbaycan qəzetinin qucağı hər bir vətən övladına açıq olan, vətən abadlığı, millətin tərəqqisi, dövlətin nizamı üçün əlindən gəldiyi qədər çalışan milli mətbu orqan olduğunu deyirdi. Dahi şəxsiyyət daxili münaqişələrin davam etdiyi müddətcə istiqlaliyyətimizin təhlükə altında olmasının qaçılmaz olduğunu vurğulayırdı. Azərbaycanda yalnız Azərbaycan hökumətinin tanınması üçün “birlik olub aqilanə çalışmaq gərəkdir”, – deyə xalqı birliyə, Böyük millətçi “əsrimiz tərəqqi əsridir” deyərək, xalqı bu yolda mübarizə aparmağa səsləyirdi [4].

Azərbaycan Parlamenti Şərqdə azad və demokratik təsisatlara arxalanaraq, qadınlara seçmək və seçilmək hüququ verən, xalqın və dövlətin mənafelərini bilavasitə özündə birləşdirən, insan hüquq və azadlıqlarına xidmət edən bir Parlament olmaqla, fəaliyyətdə olduğu az müddətdə taleyüklü çox məsələlərin həllinə nail ola bildi. Məhz buna görə də o, öz adını Azərbaycan tarixinə unudulmaz səhifələrlə yazdı və xalqımızın qəlbində əsrlərlə yaşamaq hüququnu qazana bildi. Onun fəaliyyətinin və adının bu gün şərəflə xatırlanması, Parlament fədailərinin xatirəsinin əziz tutulması bunu deməyə əsas verir və bu, danılmaz bir həqiqət, tariximizin şərəfli səhifəsidir.

## Ədəbiyyat / *References*


1. “Azərbaycan” qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 – aprel 1920), Ş.Hüseynov, I cild. – Bakı: Qanun, 2016.
2. “Azərbaycan” qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 – aprel 1920), Ş.Hüseynov, II cild. – Bakı: Qanun, 2016.
3. Hacıbəyov, Ü. Seçilmiş əsərləri, 2 cilddə, II cild. Publisistik əsərləri (felyetonları). – Bakı: 2005.
4. “İrşad” qəzeti, 4 mart, 1906-cı il, № 67.

## ВПЕЧАТЛЕНИЯ УЗЕИРА ГАДЖИБЕЙЛИ О ПАРЛАМЕНТЕ

**Ляман Мухтарова**
Национальный Музей азербайджанской литературы имени Низами Гянджеви. Азербайджан.
E-mail: lemanazfen@gmail.com

**Резюме.** В статье рассматриваются впечатления Узеир бека Гаджибейли о некоторых заседаниях парламента, его заботы о свободе и независимости своего народа. Главная цель, поставленная в статье, – показать впечатления У.Гаджибейли о только что созданном Парламенте Азербайджанской Демократической Республики в 1918 году. Открытие Парламента Азербайджана в 1918 году было большим историческим событием. Парламент был надеждой людей на пути к национальной свободе, внутренней стабильности и защите от иностранного вмешательства. В статье также затрагиваются взгляды У.Гаджибейли на просвещение нации, о сохранении национального языка и на проводимые на этом пути реформы. Он считал парламент главной опорой на пути к независимости. В его статьях о первом Национальном Парламенте мы видим главный девиз У. Гаджибейли – национальное единство, и его надежду на то, что парламент сможет сохранить неприкосновенность нового правительства. В статье анализируются идеи народного борца за независимость, который призывал народ на решительные поступки на пути к суверенитету. А также отражены горделивые высказывания У.Гаджибейли о Национальном Парламенте, созданном на основах демократических и суверенных принципов.
**Ключевые слова:** Парламент, впечатление, национальная независимость, заседание, Узеир